# Sədrin mesajı



2007-ci ili uğurla məhsuldar vuraraq İqtisadi Tədqiqatlar Mərkəzinin (İTM) qisa fəaliyyət tarixinə daha 1 ili də geridə qoyduq. Bu illər ərzində müvəffəqiyyətimizin əsasını təşkil edən peşəkarlıq, fəaliyyətimizdə ardıcıllıq və məhsuldarlıq, eləcə də şəffaflıq və hesabatlılıq ötən ilin də başlıca prinsiplərinə çevrildi.

Bu prinsiplər arasından, mütəxəssis əsri sayılan XXI əsrdə dünyada beyin məhsullarına tələbatın atdığını nəzərə alaraq peşəkarlığı önə çəkdik. Məhz peşəkarlığın nəticəsi olaraq ötən il İTM siyasət araşdırması sahəsində məşhur olan ən nüfuzlu beyin mərkəzlərinin siyahısında özünə yer qazandı, dünyada tanınan bir sıra şəbəkələrə, konfranslara dəvət aldı.

Proqram fəaliyyətimizdəki ardıcıllıq zaman-zaman uğur qazanmış layihələrimizin genişlənməsinə gətirib çıxartdı. Nəticədə ötən il biz üç müxtəlif donorun dəstəyi ilə Azərbaycanın müxtəlif bölgələrini təmsil edən 70-dən çox bələdiyyədə ilk dəfə olaraq növbəti ilin büdcə layihəsinin ictimai müzakirəsini təşkil etmək kimi daha bir uğura da imza atdıq. Bu, qərarların qəbulunda vətəndaş iştirakçılığına, büdcə şəffaflığının artırılmasına və ən əsası, yerli demokratiyanın inkişafına yönəlmiş ən yaxşı töhfə oldu.

Ötən ildən İTM peşəkar və məhsuldar fəaliyyətinə görə ABŞ Beynəlxalq İnkişaf Agentliyi ilə tərəfdaş kimi əməkdaşlıq edən

yeganə yerli QHT statusu qazandı. Bu əməkdaşlığın başlıca nəticəsi olaraq Azərbaycanda ilk dəfə rəsmi göstəricilərə alternativlər yarandı. Alternativ yolla aparılan hesablamaların təsiri ilə reallığı daim təhrif edilən inflyasiya göstəricisi gerçəkliyə yaxınlaşdı. Bu fəaliyyətdən əldə olunan nailiyyətlər sayəsində İTM-in hesablamalarına dünyanın nüfuzlu "The Economist" jurnalında, "Financial Times" qəzetində istinadlar oldu. Beləliklə də ABŞ BİA - İTM əməkdaşlığı Azərbaycanda mövcud olan inflyasiya kabusunu beynəlxalq və yerli səviyyədə ictimai diqqət mərkəzində saxladı, sayı on minlərlə olan biznes subyekti və milyonlarla ev təsərrüfatının qərarları rasionallaşdı.

Şəffaflıq prinsiplərinə sadiq qalan, hesabatlılığı ənənəyə çevirən, müasir idarəçilik strukturları (keyfiyyətə nəzarət, insan resursları, ictimai və beynəlxalq əlaqələr) yaratmaq və idarəetməni iki pillədə təşkil etməklə (Müşahidə Şurası və İdarə Heyəti) beynəlxalq standartlara daha da yaxınlaşan İTM-in menecmenti idarə edənlərin deyil, müxtəlif istiqamətlər üzrə təsdiq olunmuş siyasətlərin, qaydaların nəzarətinə keçdi.

Ötən ilə baxış bucağımız yaxın olduğu üçün Mərkəzin fəaliyyətində baş verənlərin hamısını xatırlamaq o qədər də çətin deyil. Bir il ərzində nələrə nail olduq, nələri itirdik - bu istiqamətdə dəqiq ölçülərə malik olmasaq da, qazandıqlarımızın itirdiklərimizdən çox olduğuna heç bir şübhəmiz yoxdur. Odur ki, ilk növbədə seçdiyimiz prinsiplərə, söykəndiyimiz qaydalara, güvəndiyimiz heyətə və donorlara minnətdarıq.

Daim yeni ideyalar axtarışı ilə məşğul olan İTM-in gələcək planlarında mövcud tədqiqatların daha da dərinləşdirilməsi əsas xətti təşkil etsə də, biz dinamik iqtisadiyyata adekvat olan çevik qərarlarla müasir aktual problemləri diqqətdə saxlamaq və onların "həll ağacları"nı qurmaqla hələ də qaranlıqda qalan bir çox məsələlərə aydınlıq gətirmək niyyətindəyik. Bunun üçün dayanıqlı iqtisadi inkişafa və yaxşı idarəetməyə yardım missiyası altında və strateji plana istinadən və hələ ki, reallaşmayan məqsəd və vəzifələr uğrunda davamlı fəaliyyətdə olacağıq.

Arzumuz budur ki, 2008-ci ildəAzərbaycan iqtisadiyyatı və vətəndaşları İTM-in fəaliyyətindən əvvəlki illə müqayisədə daha çox bəhrələnə bilsin. Odur ki, qütblərindən və mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanı sevən və onun tərəqqisinə xidmət edən hər bir qüvvə ilə əməkdaşlığa hazırıq.

**Qubad İbadoğlu,**
**İdarə Heyətinin sədri**

# Layihənin adı:

Şəffaflıq təşəbbüslərinin genişləndirilməsi və
yerli büdcə prosesində ictimai iştirakçılığın artırılması

# Maliyyə dəstəyi:

ABŞ Beynəlxalq İnkişaf Agentliyinin Vətəndaş Cəmiyyəti Layihəsi

# Layihənin müddəti:

03 sentyabr 2007 - 03 may 2008

**Layihənin keçirilməsində məqsəd Quba rayonundan pilot qaydasında seçilmiş 4 bələdiyyənin texniki və metodiki baxımdan dəstəklənməsi, büdcə-vergi işinin təşkilinin təkmilləşdirilməsi və bu prosesdə ictimai iştirakçılığın artırılmasıdır. Bundan başqa, layihənin ötən ilki mərhələsində əməkdaşlıq edilmiş Qusar rayonunun Piral və Həsənqala bələdiyyələrində "Vətəndaşın rəy kartı" ictimai rəy sorğusunun tətbiqi planlaşdırılıb.**



Layihənin icrası mərhələsində ilkin olaraq bələdiyyələrin seçimi məqsədilə 28 sentyabr 2007-ci ildə Quba rayonunda layihənin təqdimatı keçirilib. Tədbir Quba rayon İcra Hakimiyyəti ilə qarşılıqlı əməkdaşlıq şəraitində təşkil edilib. Tədbirdə 14 bələdiyyədən 20 nəfərə yaxın nümayəndə iştirak edib. Tədbirdə bələdiyyə nümayəndələrinə sorğu anketi paylanıb və sonra həmin anketlərdəki məlumatlardan istifadə edilərək seçim mərhələsinə start verilib. İlkin siyahıya 10 bələdiyyə daxil olub, bələdiyyələrin ərazisinə səfərlərdən sonra isə onların sayı 6-ya endirilib. Yekunda isə əməkdaşlıq üçün 4 bələdiyyə - Paşaoba, İqriq, Alekseyevka və Hacıhüseynli - seçilib. Seçilmiş bələdiyyələr kompüter dəsti ilə təmin olunub və bələdiyyə qulluqçularına kompüterdə işləmək qabiliyyəti aşılanıb. Həmçinin 4 bələdiyyəyə İTM-in bu sahəyə aid olan nəşrləri təqdim olunub. Noyabr ayı ərzində hər dörd bələdiyyədə 2008-ci ilin

proqnoz büdcə göstəricilərinin kənd sakinləri ilə ilkin müzakirəsi məqsədilə dəyirmi masalar təşkil olunub. Bu tədbirlərdə səslənən təkliflər proqnoz büdcədə nəzərə alınıb və büdcələr "Bələdiyyə büdcəsi" qəzetində dərc olunaraq kənd sakinləri arasında paylanıb. Bundan başqa, dərc olunmuş qəzet əhalinin tanışlığı məqsədilə büdcə guşəsində də yerləşdirilib. Qəzetlərin paylanmasında məqsəd isə dekabr ayında keçiriləcək ictimai dinləmə ərəfəsində bütün kənd sakinlərinin büdcə ilə tanışlığını təmin etmək idi.

2007-ci ilin dekabr ayında layihə ekspertlərinin iştirakı ilə hər 4 bələdiyyədə ictimai dinləmə keçirilib. Dinləmələr zamanı əhalinin təklif və iradları nəzərə alınaraq büdcələr təsdiqlənib və büdcə guşəsində yerləşdirilib.



2008-ci ildə isə layihə çərçivəsində bir qəzetin dərc olunması və 4 dəyirmi masanın (tərəfdaş bələdiyyələrin hərəsində bir dəyirmi masa) keçirilməsi nəzərdə tutulur. Bundan başqa, Qusar rayonunun Piral və Həsənqala bələdiyyələrində Azərbaycanda ilk dəfə olaraq "Vətəndaşın rəy kartı" və "Toplantı meydançaları" kimi ictimai iştirakçılıq fomalarının tətbiq olunması nəzərdə tutulur.





## Layihənin adı:

"Büdcə şəffaflığı və bələdiyyələrin qərar qəbuletmə prosesində ictimaiyyətin iştirakının gücləndirilməsi"

## Maliyyə dəstəyi:

ABŞ Beynəlxalq İnkişaf Agentliyi

## Təşkilatı dəstək:

CHF İnternational

## Layihənin müddəti:

19 sentyabr 2007 - 19 fevral 2008

**Layihənin məqsədi bələdiyyələrin büdcə idarəçiliyi sahəsində bilik və bacarıqlarının artırılması, bələdiyyə ərazisində yaşayan sakinlərin məlumatlılığının artırılması yolu ilə onların bələdiyyələrin qərar qəbuletmə prosesində iştirakçılığına nail olmaqdan ibarətdir.**



Layihə çərçivəsində Azərbaycanın Şimal-şərq (Quba, Qusar, Xaçmaz, Dəvəçi), Şimal-qərb (Şəki, Qax, Zaqatala, Balakən) və Cənub-şərq (Cəlilabad, Lənkəran, Astara, Lerik, Masallı, Yardımlı) bölgələrindən 62 bələdiyyədə fəaliyyətlər nəzərdə tutulub. Layihənin proqram məqsədlərinə daha yaxşı nail olmaq üçün aşağıdakı istiqamətlər üzrə fəaliyyətlər müəyyənləşdirilib:

1. "Bələdiyyədə büdcə idarəçiliyi və bu prosesdə ictimai iştirakçılıq" mövzusunda tərəfdaş bələdiyyələrin nümayəndələrinə təlimlərin keçilməsi;
2. Büdcənin tərtibi üçün zəruri olan büdcə sənədlərinin və məlumatlarının toplanması və növbəti ilin büdcə layihəsinin hazırlanması;
3. Büdcə layihələrinin vahid büdcə təsnifatına uyğun hazırlanması, onların şərhlə birlikdə xüsusi olaraq bələdiyyə büdcələrinə həsr

olunmuş qəzet formatında nəşri və bələdiyyə sakinlərinə çatdırılması;

4. Bələdiyyələrdə 2008-ci ilin büdcə layihəsi üzrə dinləmələrin keçirilməsi;

5. Yekun büdcələrin qanunun tələblərinə və mövcud reqlamentə uyğun olaraq təsdiqi və budcə prosesinin növbəti mərhələləri üzrə monitorinqi.

Layihənin icrası zamanı birinci təlim 25-28 sentyabr 2007-ci il tarixdə Xaçmaz şəhərində "Büdcə şəffaflığı və bələdiyyələrin qərar qəbuletmə prosesində ictimaiyyətin iştirakının gücləndirilməsi" mövzusunda keçirilib. Təlimdə Şimal-şərq regionunun (Quba, Xaçmaz, Qusar, Dəvəçi) 23 bələdiyyəsinin 47 təmsilçisi (sədr, üzv, mühasib və sair) iştirak edib.



İkinci təlim ölkənin Simal-qərb regionu (Şəki, Qax, Zaqatala, Balakən) üzrə oktyabr ayının 2-5-də Qax şəhərində keçirilib. Təlimdə bölgənin 20 bələdiyyəsindən 42 təmsilçi iştirak edib.

Üçüncü təlim ölkənin Cənub-şərq regionu (Cəlilabad, Lənkəran, Astara, Lerik, Masallı ve Yardımlı rayonları) üzrə oktyabrın 8-11-də Lənkəran şəhərində keçirilib. Tədbirdə bölgənin 20 bələdiyyəsindən 33 təmsilçi iştirak edib.

Layihənin proqram fəaliyyətinə müvafiq surətdə hazırlanmış təlim proqramına əsasən "Yerli büdcə prosesi və şəffaflıq", "Yerli büdcə şəffaflığı və bələdiyyələrin qərar qəbuletmə prosesində ictimaiyyətin iştirakçılığı", "Yerli büdcənin təsnifatı", "Əmlak və torpaq vergisinin hesablanması və fiziki şəxslərin ödəmə prinsipləri", "Yerli vergi ödəyicilərinin qeydiyyatı" və "Bələdiyyə büdcəsinin təhlili" mövzularına həsr olunmuş təlimlər interaktiv şəkildə keçirilib, praktik məsələlər müzakirə olunub, iştirakçıların konkret sualları müvafiq qanunvericiliyə əsasən cavablandırılıb və ayrı-ayrı aktual məsələlərlə əlaqədar qruplarda iş aparılıb.

Sonrakı mərhələdə layihənin ekspertləri büdcə məlumatlarını toplayaraq hər bir tərəfdaş bələdiyyə ilə birlikdə onların qanunvericiliyin tələblərinə müvafiq formada tərtibi prosesini başa çatdırmış və zəruri şərh-





lə birlikdə qəzetdə nəşr olunmaq üçün hazırlamışlar. Hər bölgə üzrə 1500 nüsxə olmaqla “Bələdiyyə büdcəsi” adlı xüsusi buraxılış qəzet formatında nəşr edilərək, bələdiyyə ərazisində yaşayan əhaliyə paylanıb. Qəzetlərdə layihə barədə məlumatla yanaşı, bələdiyyələrin 2008-ci il üçün proqnoz büdcə göstəriciləri və onun şərhinə dair materiallar yerləşdirilib.

2007-ci ilin noyabr ayının sonundan başlayaraq hər 3 bölgədə ictimai dinləmələrə start verilib. Noyabr ayının 27-dən dekabr ayının 19-na qədər olan dövr ərzində Şimal-şərq regionunun (Quba, Qusar, Xaçmaz, Dəvəçi) 19 bələdiyyəsində 2008-ci ilin proqnoz büdcə göstəricilərinin sakinlərlə müzakirəsi məqsədilə ictimai dinləmə keçirilib. Bu dinləmələrdə ümumilikdə 700 nəfərə yaxın yerli sakin iştirak edib. Hər bələdiyyə üzrə iştirakçılıq səviyyəsi orta hesabla 35 nəfər təşkil edib.

Noyabr ayının 28-dən dekabr ayının 13-nə qədər olan dövr ərzində Şimal-qərb regionunun (Şəki, Zaqatala, Qax, Balakən) 18 bələdiyyəsində 2008-ci ilin proqnoz büdcə göstəricilərinin sakinlərlə müzakirəsi məqsədilə ictimai dinləmə keçirilib. Bu dinləmələrdə ümumilikdə 1000 nəfərə yaxın sakin iştirak edib. Hər bələdiyyə üzrə iştirakçılıq səviyyəsi orta hesabla 55 nəfər təşkil edib.

Noyabr ayının 27-dən dekabr ayının 12-nə qədər olan dövr ərzində Cənub-şərq regionunun (Cəlilabad, Masallı, Astara, Yardımlı və Lerik) 19 bələdiyyəsində 2008-ci ilin proqnoz büdcə göstəricilərinin sakinlərlə müzakirəsi məqsədilə ictimai dinləmə keçirilib. Bu dinləmələrdə ümumilikdə 750 nəfərə yaxın sakin iştirak edib. Hər bələdiyyə üzrə iştirakçılıq səviyyəsi orta hesabla 38 nəfər təşkil edib.

Dinləmələr başa çatdırıldıqdan sonra bələdiyyə ərazilərində xüsusi büdcə guşələri yaradılıb.

Layihənin yekununda təsdiq olunmuş büdcələrin qanunun tələblərinə və mövcud reqlamentə uyğun olaraq təsdiqinin və büdcə prosesinin növbəti mərhələlərinin icrası vəziyyətinin monitorinqinə start verilib.

**Layihənin adı:**

Azərbaycanda yerli özünüidarəetmə orqanlarının gücləndirilməsi

**Maliyyə dəstəyi:**

"Oksfam" Beynəlxalq Humanitar Təşkilatı (Böyük Britaniya) və İCCO təşkilatı (Hollandiya)

**Layihənin müddəti:**

01 avqust 2007 - 30 aprel 2008

**Layihənin məqsədi icmanın bələdiyyələrə qarşı inamını yüksəltmək, hökümət ilə dialoqda bələdiyyələrin mövqeyini güsləndirmək və maliyyə vəsaitlərinin artırılması yolu ilə Azərbaycanda yerli özünüidarəetmə orqanlarının gücləndirilməsinə nail olmaqdır.**

Layihə Aran-Qarabağ regionunda həyata keçirilir. Layihənin birinci mərhələsində İTM "Şəffaf büdcə" kompüter hesablama proqramının təkmilləşdirilməsi və "Tətbiqi büdcə təhlili" proqramının hazırlanması işini həyata keçirəcək. Artıq, layihə çərçivəsində "Şəffaf büdcə" proqramında Vergi Məcəlləsinə edilən dəyişikliklərlə bağlı təkmilləşdirmə işləri başa çatdırılıb. İTM "Aran-Qarabağ" regionunda əməkdaşlıq etdiyi 28 tərəfdaş bələdiyyədən 15-də proqramın təkmilləşdirilmiş variantının pilot qaydasında tətbiqini həyata keçirir. Bundan başqa, "Tətbiqi büdcə təhlili" proqramının hazırlanması istiqamətində də işlərə start verilib. Belə ki, proqramın hazırlanması ilə bağlı bu istiqamətdə əsaslı işlər görmüş dünya ölkələrinin təcrübəsi öyrənilib və proqramın ilkin variantının hazırlanması işləri davam etdirilir. 2008-ci ildə layihə çərçivəsində pilot qaydasında seçilmiş bələdiyyələrdə təlim-treninqlərin keçirilməsi və proqramların tətbiqi istiqamətində işlərin görülməsi nəzərdə tutulur.

**Layihənin adı:**

Bələdiyyə büdcələrində şəffaflığın artırılması
və ictimai iştirakçılığın təmin edilməsi üçün
informasiya-kompüter texnologiyalarının tətbiqi

**Maliyyə dəstəyi:**

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Dünya Bankı

**Layihənin müddəti:**

01 oktyabr 2007 - 31 mart 2008

**Layihənin həyata keçirilməsində məqsəd yerli vergilərin hesablanması sahəsində informasiya texnologiyalarının yaradılması və tətbiqidir.**



Layihə çərçivəsində bələdiyyə vergi kalkulyatoru hazırlanıb və təşkilatın rəsmi veb səhifəsi olan www.erc-az.org saytında yerləşdirilib. Kalkulyatorun köməyi ilə istənilən şəxs yerli vergilər olan fiziki şəxslərin torpaq və əmlak, bələdiyyə müəssisələrinin mənfəət və bələdiyyə büdcəsinə ödənilən yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergilərini hesabaya bilər. Digər fəaliyyət isə Mərkəzin məhsulu olan "Şəffaf büdcə" proqramının populyarlaşdırılmasıdır. Belə ki, bələdiyyələr üçün "Şəffaf büdcə" proqrami barədə təlimlər keçirilməsi və onun iki bələdiyyədə tətbiqi nəzərdə tutulur. Bundan əlavə, həmin proqramın digər bələdiyyələrin istifadəsini asanlaşdırmaq məqsədilə "Şəffaf büdcə" proqramının İTM-in veb səhifəsində yerləşdirilməsi planlaşdırılır.

Mərkəz layihənin nəticəsi olaraq hazırladığı hər iki informasiya kommunikasiya aləti haqqında media kampaniyası aparacaq. Layihənin yekunu olaraq final konfransın keçirilməsi nəzərdə tutulur.

## Layihənin adı:

“Səhiyyə büdcəsinin monitorinqi və vəkilliyi prosesində informasiya-kommunikasiya texnologiyalarının (İKT) tətbiqi”

## Maliyyə dəstəyi:

Açıq Cəmiyyət İnstitutu-Yardim Fondunun Nyu-York ofisi

## Layihənin müddəti:

25 yanvar 2007 - 25 oktyabr 2008

**Layihənin məqsədi səhiyyə sahəsində ixtisaslaşmış QHT-ləri birgə fəaliyyət formatında vəkillik prosesinə cəlb etməklə səhiyyənin maliyyələşdirilməsi problemlərinin ictimailəşdirməkdir.**

Layihənin fəaliyyət planına uyğun olaraq, 20-21 aprel 2007-ci ildə “İrşad” mehmanxanasında “Səhiyyə büdcəsi və vəkillik” mövzusunda təlim keçirilib. Təlimə sosial-tibbi istiqamətlər üzrə ixtisaslaşmış QHT-lər üçün 11-13 dekabr 2006-cı ildə keçirilmiş “Səhiyyə büdcəsi və onun monitorinqi” təliminin seçilmiş iştirakçıları ilə yanaşı, HİV/QİÇS qrupu üzvləri də dəvət olunub. Tədbirdə Səhiyyə Nazirliyinin, Azərbaycan Diabet Liqasının, HİV/QİÇS qrupunun, əlilllər və uşaqlarla iş, ilkin səhiyyə xidməti və səhiyyəyə dəstək sahəsində ixtisaslaşmış QHT-lərin, eyni zamanda səhiyyə mövzusunda yazan KİV nümayəndələri iştirak edib.

Təlimdən sonra layihənin proqram məqsədlərinə müvafiq olaraq, 2007-ci il mayın 7-də "Sağlamlığa Çağırış" QHT Alyansı təsis edilib. Alyansın məqsədi Minilliyin İnkişaf Məqsədləri üzrə səhiyyə sahəsində Azərbaycan qarşısında duran vəzifələrin və hədəflərin reallaşdırılmasında, səhiyyə proqramlarının nəticələrinin qiymətləndirilməsi və monitorinqinin aparılmasında iştirak etməkdir. Alyansda səhiyyə sahəsində ixtisaslaşmış 11 qeyri-hökumət təşkilatı təmsil olunub. Həmin təşkilat-



ların 2-si bölgələrdə - Bərdədə və Gəncədə yerləşir. 22 iyun 2007-ci ildə "Sağlamlığa Çağırış" QHT Alyansının Beynəlxalq Mətbuat Mərkəzində mətbuat üçün təqdimati keçirilib.

2007-ci ilin 16 may - 6 iyun tarixlərində “Sağlamlığa Çağırış" QHT Alyansının bir qrup üzvü ABŞ Beynəlxalq İnkişaf Agentliyinin dəvəti ilə «Dünya ilə tanışlıq» proqramı çərçivəsində Amerikada səfərdə olub. Səfərin təşkili Ohayo ştatının Dünyəvi İşlər üzrə Klivlend Şurası tərəfindən həyata keçirilib. Səfərdə İqtisadi Tədqiqatlar Mərkəzi ilə yanaşı, Uşaqları Qoruyaq, Sağlam Dünya, Göy Qurşağı, Azərbaycan Diabet Liqası, Hüquqi İnkişaf və Demokratiya Təşkilatının nümayəndələri də təmsil olunub. Azərbaycan nümayəndə heyətinin ABŞ səfərinin əsas məqsədi Birləşmiş Ştatların səhiyyə sisteminin maliyyələşdirilməsi və idarə olunması ilə yaxından tanış olmaq və səhiyyədə sığorta modellərinin tətbiqi təcrübəsini mənimsəməkdən ibarət olub.

Bundan əlavə, 2007-ci ilin iyul ayında “Azadlıq” radiosunda səhiyyə problemlərinə həsr olunmuş 3 debat təşkil olunub. Debatlarda Alyans üzvləri ekspert qismində çıxış ediblər.

Layihə çərçivəsində “Ekspert” jurnalının səhiyyənin maliyyələşdirilməsi mövzusunda xüsusi buraxılışı hazırlanaraq nəşr edilib və maraq qrupları arasında pulsuz yayılıb. Jurnalda Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin direktoru Ceyhun Məmmədovla müsahibə, Alyansın ekspertləri Süleyman Cəbrayılov, Yeganə Sultanova, Azər Mehtiyev və Qubad İbadoğlunun səhiyyənin maliyyələşdirilməsi, tibbi sığorta modelləri və digər problemlər üzrə analitik yazıları dərc olunub.

Səhiyyə proqramlarının monitorinqi sahəsində İTM ekspertlərinin əvvəllər apardığı tədqiqatların nəticəsi olaraq hazırlanan “Səhiyyə sistemində islahatlar əhali və ictimaiyyət tərəfindən dəstəklənməlidir” (“525-ci qəzet”, 27 oktyabr 2007), “Səhiyyənin maliyyələşməsində səmərəlilik problemi” (“Zerkalo”, 7 noyabr 2007) və “Diabet xəstələrinə dövlət qayğısı qaneedici səviyyədə deyil”

(“Gün səhər”, 14 noyabr 2007) adlı analitik yazılar dərc olunub.

Layihə çərçivəsində 2007-ci il iyun ayının 23-də İctimai Televiziyada “Səhiyyə sisteminin maliyyələşdirilməsi” mövzusunda talk-şou təşkil olunub. İctimai Televiziyada layihə üzrə ikinci talk-şou noyabr ayının 14-də Beynəlxalq Diabet gününə həsr olunub.

29 noyabr 2007-ci ildə “Sağlamlığa çağırış” QHT Alyansı “2008-ci ilin səhiyyə büdcəsi şəffaflıq və səmərəlilik müstəvisində” mövzusunda dəyirmi masa təşkil edib.

22 dekabr 2007-ci ildə Alyansın Novxanı “AF-Hotel”də ikinci Ümumi Yığıncağı keçirilib. Yığıncaqda Alyansın Əsasnaməsinə dəyişikliklər edilib. Müzakirələr nəticəsində Alyansın gizli səsvermə yolu ilə 7 nəfərdən ibarət İdarə Heyəti, 3 nəfərdən ibarət Monitorinq Qrupu seçilib. Ümumi Yığıncaqda həm-





çinin növbəti 3 il üçün məqsədləri və prioritetləri əks etdirən strateji plan hazırlanıb.

23 dekabr 2007-ci ildə “AF-Hotel”də “Səhiyyə büdcəsinin oxunuşu və təhlili” mövzusunda seminar keçirilib.

Layihənin vəkillik qrupu tərəfindən 5 dəfə (fevral-mart, aprel-may, iyun-iyul, avqust-sentyabr, oktyabr-noyabr aylarında) informasiya bulleteni hazırlanaraq, Azərbaycan və ingilis dillərində aidiyyati orqanlar arasında yayılıb.

Yekun olaraq İTM-in saytında layihənin reallaşdırılması nəticəsində əldə olunmuş məhsulların (TV talk-şoular, radio-debatlar, “Ekspert” jurnalının xüsusi buraxılışı, qəzetlərdə dərc olunmuş məqalələr, ictimai maarifləndirmə tədbirləri, mətbuat konfransları) bazasında ayrıca link yaradılıb.

## Layihənin adı:

“Səhiyyəyə dair Minilliyin İnkişaf Məqsədləri” kampaniyası”

## Maliyyə dəstəyi:

“Oxfam” (Böyük Britaniya) Beynəlxalq Humanitar Təşkilatı

## Layihənin müddəti:

15 iyun 2007 - 15 iyul 2007

**Layihənin məqsədi Minilliyin İnkişaf Məqsədlərinin reallaşması sahəsində Azərbaycanda mövcud vəziyyət, mümkün təhlükələr və perspektivlər barədə ictimaiyyəti məlumatlandırmaq, həmçinin KİV-lər vasitəsilə hökumət strukturlarının diqqətini bu məsələlərə cəlb etmək idi.**



Layihə çərçivəsində regionlara səfərlər edilərək 5 regional TV (“Simurq” (Tovuz), “Mingəçevir” (Mingəçevir), “Alternativ” (Gəncə), “Aygün” (Zaqatala) və “Qütb” (Quba)) və 1 mərkəzi TV (ANS) ilə sənədli filmin nümayişinə dair, həmçinin mövzu ilə bağlı canlı müzakirələrin təşkili üçün “Azadlıq” radiosu ilə müqavilə imzalanıb.

İyulun 6-da Beynəlxalq Mətbuat Mərkəzində “Minilliyin yarı yolu: çatılmayan hədəflər” adı altında mətbuat konfransı keçirilib. Konfransda Azərbaycanın Minilliyin İnkişaf Məqsədlərinə çatmaq istiqamətində gördüyü işlər, mövcud problemlər barədə media təmsilçilərinə məlumat verilib. Həmin gün saat 18.00-da “Azadlıq” radiosunda eyni mövzuda canlı müzakirələr təşkil olunub.

İyulun 7-də Minilliyin İnkişaf Məqsədlərindən ikisi üzrə (ana və uşaq ölümü səviyyəsinin azaldılması) Azərbaycandakı vəziyyəti əks etdirən “Dünyaya göz açanda” sənədli filmi saat 14.20-də ANS telekanalında, saat 19.30-da “Simurq” TV-də, 19.10-da “Aygün” TV-də, 20.30-da “Mingəçevir” TV-də, 20.45-də “Alternativ” TV-də, 21.35-də isə “Qütb” TV-də nümayiş olunub.

## Layihənin adı:

“Ünvanlı sosial yardım mexanizminin effektivliyinə təsir edən faktorların qiymətləndirilməsi”

## Maliyyə dəstəyi:

“Oxfam-Novib” təşkilatı (Hollandiya)

## Layihənin müddəti:

01 sentyabr 2007 - 30 aprel 2008



**Layihə çərçivəsində dövlət orqanları və ekspertlərlə görüşlər keçirilib. Görüşlərdə Mingəçevir şəhərində sorğu keçiriləcək sorğuların reprezentativliyini təmin etmək üçün metodiki məsələlər müzakirə edilib. Nəticədə təsadüfi seçmə üsulu ilə Mingəçevir şəhərində yeni respondentlərin yerləşdiyi ünvanlar müəyyənləşib.**

Layihə çərvəsində ilk görüş  Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində təşkil olunub. Görüşdə respondentlərə paylanacaq anketlərin məzmunu, habelə ünvanlı sosial yardım sahəsində qanunvericilik sahəsində baş verən son dəyişikliklər müzakirə edilib.

Rəsmi orqanlarla görüşlərdən sonra hazırlanmış sorğu anketləri pilot qaydasında Bakı şəhərində ilkin sınaqdan keçirilib.

Mingəçevir şəhərində keçirilən sorğu üçün 3 anket forması qəbul edilib. Birinci anket əvvəlki sorğuda iştirak edən və ÜSY verilməsindən imtina olunmuş 200 nəfərə ünvanlanıb. İkinci anket forması keçən sorğuda iştirak etmiş və USY təyin olunan 200 nəfər üçün nəzərdə tutulub. Üçüncü forma sorğu anketi keçən seçkidə iştirak etməyən 400 yeni respondent arasında sorğu keçirilərkən istifadə olunub. Beləliklə, layihə çərçivəsində 800 respodent arasında sorğuya start verilib.

Mingəçevir şəhərində sorğunu keçirmək üçün 5 nəfərdən ibarət anketyor qrupu təşkil edilib. Qrupun iş planı qəbul edilib və anketyorlara anketin məzmunu və respondentlərin dislokasiyası barədə məlumat verilib, metodiki və təşkilati tövsiyələr edilib.

Noyabrın 1-dən etibarən sorğu keçirilməsinə başlanıb və bu proses dekabrın 1-dək yekunlaşıb. Sorğu materialları SPSS proqramı vasitəsilə emal edildikdən sonra nəticələr ictimaiyyətə açıqlanacaq. Hazırda sorğunun nəticələrinin təhlili və qiymətləndirilməsi aparılır. Bu mərhələ yekunlaşdıqdan sonra tədqiqat hesabatının hazırlanması və tövsiyə paketinin işlənilməsi nəzərdə tutulub. Sonda ictimai müzakirələrin təşkili planlaşdırılır.

**Layihənin adı:**

"Məcburi köçkünlərə elektrik enerjisindən istifadəyə və ərzaq yardımına görə dövlət büdcəsindən ayrılan vəsaitlərin istifadəsinin səmərəlilik və şəffaflığının monitorinqi"

**Maliyyə dəstəyi:**

Açıq Cəmiyyət İnstitutu -Yardım Fondu

**Təşkilati dəstək :**

Milli Büdcə Qrupu

**Layihənin müddəti:**

01 mart 2007 - 01 mart 2008



**Layihənin başlıca məqsədi dövlət büdcəsindən məskunlaşmamış məcburi köçkünlərə ayrılan xərclərin monitorinqinin aparılması və bu yolla vəsaitlərin şəffaf prinsiplər əsasında bölüşdürülmə mexanizmlərinin üzə çıxarılması, əldə olunan təcrübənin təlimlərin təşkili yolu ilə digər şəbəkə QHT-lərinə ötürülməsi və onlarla birlikdə bu sahədə vəkillik konsepsiyasının işlənərək həyata keçirilməsindən ibarətdir.**

Layihə çərçivəsində iki istiqamət üzrə monitorinq aparılıb:

1. Birinci istiqamət üzrə məcburi köçkünlərə normativ kimi ayrılan aylıq 150 kVt/saat elektrik enerjisi limitinin istifadə vəziyyəti öyrənilib. Bunun üçün Füzuli, Beyləqan, Saatlı, Sabirabad rayonlarında və Bakı şəhərində məskunlaşmış məcburi köçkün ailələrinin evlərində elektrik sayğacları quraşdırılıb. Bu sayğaclar yaz və yay möv-

sümləri üçün, hər bir rayon ərazisində beş məcburi köçkün ailəsində quraşdırılmış, əldə olunan nəticələr ümümiləşdirilmişdir. Daha sonra əldə olunan məlumatların mötəbərliyini təmin etmək üçün monitorinq qış mövsümündə də təkrar həyata keçirilib. Bu dəfə Gəncə şəhəri, Bərdə, Ağdam və Füzuli rayonlarında məskunlaşan məcburi köçkün ailələrinin evlərində elektrik sayğacları quraşdırılıb.

2. İkinci istiqamət üzrə məskunlaşmamış məcburi köçkünlərə dövlət büdcəsindən ayrılan vəsaitlər hesabına natural formada verilən ərzaq yardımlarının monitorinqi aparılıb. Bunun üçün əvvəlcədən seçilmiş ərazilərdə əhali və ev təsərrüfatları arasında yerində sorğu keçirilib. Füzuli rayonu ərazisində 18, Beyləqan rayonu ərazisində 8, Saatlı rayonu ərazisində 10, Sabirabad rayonu ərazisində isə 9 məcburi köçkün ailəsi sorğuya cəlb edilib və sorğunun nəticələri ümumiləşdirilib.

Layihə çərçivəsində Qaçqın və Məcburi Köçkünlərin İşi üzrə Dövlət Komitəsi ilə intensiv əməkdaşlıq əlaqələrinin qurulmasına nail olunub. Layihənin işçi qrupu Komitə nümayəndələri ilə bir neçə dəfə görüş keçirib. Aparılan müzakirələrdən sonra enerji təchizatı ilə bağlı monitorinqin üçüncü mərhələsi məhz komitənin yerli nümayəndəliklərinin iştirakı ilə həyata keçirilib.

## Layihənin adı:

“Alternativ inflyasiya metodologiyasının işlənilməsi”

## Maliyyə dəstəyi:

ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAİD), qismən İTM

## Təşkilati dəstək :

Dünyanı Öyrənmək (World Learning), Avrasiya Fondu

## Layihənin müddəti:

03 noyabr 2006 - 17 fevral 2008

**Layihənin başlıca məqsədləri hökumətin mövcud antiinflyasiya siyasətini gücləndirmək, inflyasiyanın yoxsulluq səviyyəsinə təsirini müəyyənləşdirmək, mövcud metodologiyanı təkmilləşdirməklə onun əsasında inflyasiyanı alternativ yolla hesablamaq olub.**

Layihənin birinci mərhələsi 2007-ci il avqust ayının 24-də başa çatıb. Aralıq mərhələdə layihənin davamı İqtisadi Tədqiqatlar Mərkəzinin xususi resursları hesabına maliyyələşdirilib. Aralıq mərhələ başa çatandan sonra 2007-ci ilin oktyabr ayından etibarən layihənin ikinci mərhələsi başlayıb. Bu mərhələnin ilk 2 ayı ABŞ BİA-nın maliyyə dəstəyi ilə Avrasiya Fondunun, sonraki 2 ayı isə Dünyanı Öyrənmək təşkilatının təşkilati dəstəyi ilə həyata keçirilib. Beləliklə, layihənin icra müddəti 1 il 4 ay davam edib.

Layihənin birinci mərhələsində aşağıdakı fəaliyyətlər həyata keçirilib: Azərbaycanda mövcud inflyasiya metodologiyasının qiymətləndirilməsi və təkmilləşdirilməsi (ı), sorğular vasitəsilə gerçək inflyasiya dərəcəsinin müəyyənləşdirilməsi (ıı), hökumətin antiinflyasiya siyasətinin təsirliliyinin gücləndirilməsi (ııı), real inflyasiya səviyyəsini müəyyənləşdirməklə



neft gəlirlərinin monetar aspektlərinin iqtisadiyyata təsirinin qiymətləndirilməsi (ıv) və s.

Dünya təcrübəsini öyrənmək və ondan çıxan mütərəqqi nəticələrin tətbiqinə nail olmaq məqsədilə 3 kateqoriya ölkələr - inkişaf etmiş ölkələr, keçid ölkələri və MDB ölkələri - üzrə inflyasiya metodologiyası təcrübəsi öyrənilib.

Layihə çərçivəsində Nazirlər Kabinetində, İqtisadi İnkişaf, Maliyyə, Vergilər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərində və Dövlət Statistika Komitəsində görüşlər keçirilib. Eyni zamanda Milli Məclisin deputatları, Milli Bank, Cənubi Qafqaz üzrə İsveçrə Əməkdaşlıq Ofisi, ABŞ BİA Dövlət İnvestisiya Siyasəti layihəsi, Dünya Bankı və Beynəlxalq Valyuta Fondunun ekspertləri də layihə ilə bağlı məlumatlandırılaraq onlarla gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

2007-ci ilin yanvar ayından başlayaraq layihənin proqram məqsədlərinə müvafiq olaraq qiymətlərin statistik müşahidəsinə start verilib. Sorğular ayda 2 dəfə 3 qrup əmtəələr (ərzaq, qeyri-ərzaq və xidmətlər) üzrə qiymətlərdə baş verən dəyişikliyi qeydə almaq məqsədilə aparılıb. İnflyasiyanın səviyyəsi hər ay respublika ərazisində aparılan sorğular vasitəsilə əldə edilmiş 51480 qiymət əsasında hesablanıb. Sorğular respublikanın 9 iqtisadi rayonu üzrə 22 şəhər və rayonunu əhatə edib. Qiymətlərin müşahidəsi isə 585 məhsul üzrə aparılıb. Sorğu anketləri ərzaq, qeyri-ərzaq və xidmət sahələri üzrə qruplaşdırılıb və sorğular hər ay hər bir rayonda müvafiq olaraq 4 məntəqədə, bütövlükdə 88 məntəqədə keçirilib.

Layihə çərçivəsində Bakı və Gəncə şəhərlərində metodiki seminarlar keçirilib.

Birinci seminar aprelin 13-də "İrşad" mehmanxanasında "Alternativ inflyasiya metodologiyasının işlənilməsi" mövzusunda təşkil edilib. Eyni mövzulu ikinci seminar Gəncə şə-





hərində 1 may 2007-ci il tarixdə keçirilib.

Layihə çərçivəsində ictimai maarifləndirmə kampaniyası aparılıb. Bu sıradan ilk tədbir 8 yanvar 2007-ci ildə Beynəlxalq Mətbuat Mərkəzində "Tarif Şurasının son qərarına münasibət və gözlənilən qiymət artımları", ikinci tədbir 25 yanvar 2007-ci ildə "Qiymət artımı və inflyasiya təsirinin neytrallaşdırılması" mövzusunda keçirilib. 15 fevral 2007-ci ildə Beynəlxalq Mətbuat Mərkəzində layihənin təqdimatı olub. Mart ayında İctimai Televiziyada talk-şounun çəkilişi təşkil olunub və veriliş 26 mart 2007-ci ildə saat 19.15-də efirə gedib. 20 iyul 2007-ci ildə Beynəlxalq Mətbuat Mərkəzində 2007-ci ilin 1-ci yarısı üzrə alternativ inflyasiya hesablamalarının yekunlarına həsr olunmuş mətbuat konfransı keçirilib.

Layihə çərçivəsində aparılmış tədqiqatlar və öyrənilən təcrübələr əsasında "Alternativ inflyasiya: beynəlxalq təcrübə və Azərbaycan" adlı kitab nəşr olunub. 2007-ci il avqustun 16-da "Avropa" otelində İqtisadi Tədqiqatlar Mərkəzi tərəfindən "Alternativ inflyasiya metodologiyasının işlənilməsi" layihəsinin birinci mərhələsinin yekun konfransı təşkil edilib. Tədbirdə hökumətin iqtisadi strukturlarının, Milli Məclisin, beynəlxalq təşkilatların, yerli və xarici QHT-lərin, həmçinin mətbuat orqanlarının 80-ə qədər nümayəndəsi iştirak edib.

Layihənin əhatə etdiyi dövr ərzində 2007-ci ilin yanvar ayından başlayaraq hər ay müxtəlif mətbu orqanlarda inflyasiya ilə bağlı müxtəlif elmi kütləvi nəşrlərdə 10 məqalə dərc edilib.

Layihə çərçivəsində "son qiymət artımının monetar, qeyri-neft istehsal sektoruna və sosial siyasətə mənfi təsirinin yumşaldılması ilə bağlı tövsiyələr paketi hazırlanmış və aidiyyatı dövlət qurumlarına ünvanlanmışdır.

Layihənin ikinci mərhələsində 3-cu rüb və 4-cü rüb üçün regionlar, Baki şəhəri, ərzaq,



qeyri-ərzaq və xidmət səbəti üzrə inflyasiya səviyyəsi və respublika üzrə İstehlak Qiymətləri İndeksi hesablanaraq aidiyyatı orqanlara göndərilib və 2007-ci ilin ilk 9, 10 və 11 ayının yekunlarına həsr olunmuş mətbuat konfransı keçirilib, dövri mətbuatda layihənin nəticələrinin müzakirəsi davam etdirilib, hökümətin inflyasiya tədbirlərinə dəstək vermək məqsədilə antiinflyasiya təklifləri hazırlanaraq aidiyyəti orqanlara göndərilib, 2007-ci il noyabr ayından etibarən 3000 respondent arasında inflyasiyanın ev təsərrüfatlarının büdcəsinə, onun strukturuna, davranışlarına, qərarlarına, vətəndaşların həyat səviyyəsinə təsirinin qiymətləndirilməsi məqsədilə həyata keçirilən sorğu dekabr ayında başa çatdırılıb, eyni zamanda qiymətlərin statistik müşahidəsi təşkil olunan istehlak səbətinin təkmilləşdirilməsi məqsədilə əvvəlcə ekspert qiymətləndirilməsi aparılaraq səbətə daxil olan məhsul və xidmətlərin sayı







585-dən 384-ə, sonra isə 500 respondent arasında keçirilmiş sorğu nəticəsində 384-dən 100-ə qədər azaldılıb. İTM-in saytında “Ailənin inflyasiya veb-kalkulyatoru” yerləşdirilərək istifadəçilərin ixtiyarına verilib.

Hazırda layihənin ikinci mərhələsi davam edir. Bu mərhələnin yekununda layihə çərçivəsində keçirilmiş sorğuların emalı, təhlili və qiymətləndirilməsi aparılaraq, əldə edilmiş nəticələr müxtəlif nəşrlərdə dərc olunmaqla yanaşı, aidiyyatı dövlət orqanlarına təqdim olunacaq. 585 adda məhsul və xidmət üzrə qiymətlərin statistik müşahidəsi 2008-ci ilin mart ayınadək davam etdiriləcək, sonra isə bu proses 100 adda məhsul və xidmət üzrə aparılacaq.

Layihənin adı:

**Qırğızıstanın vətəndaş cəmiyyəti institutu nümayəndələrinin Azərbaycana səfəri**

Maliyyə dəstəyi:

**Açıq Cəmiyyət İnstitutu - Yardım Fondu (Şərq-Şərq Proqramı)**

Layihənin müddəti:

**01 Oktyabr 2007 - 01 Noyabr 2007**

**Səfərin əsas məqsədi Azərbaycanın vətəndaş cəmiyyətinin mədən sənayesi gəlirləri və onların xərclənməsinə nəzarəti prosesində iştirak formaları ilə tanış olmaq idi.**



2007-ci il oktyabr ayının 30-dan noyabr ayının 5-dək səfərdə olan nümayəndə heyətinin tərkibi Hasilat Sənayesində Şəffaflıq Beynəlxalq Təşəbbüsü (EİTİ) Qırğızıstan üzrə proqram meneceri Nuriyə Ömürbəyova, proqramın PR meneceri Yelena Çeremenina, Təşəbbüslə bağlı yaradılmış İsıkkul İşçi qrupunun koordinatoru Elina Elteyeva və həmin qrupun üzvü Nurcamal Erəliyevadan ibarət idi. Səfər çərçivəsində nümayəndə heyəti Milli Büdcə Qrupu və Azərbaycanın Mədən Sənayesində Şəffaflığın Artırılması QHT Koalisiyasının ofisində hər iki qurumun fəaliyyəti, həyata keçirilən layihələrə dair seminarlarda iştirak ediblər. Bundan əlavə qonaqlar İTM-in təşkilatçılığı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Dövlət Neft Fondu, bp şirkətinin, Statoil şirkətinin, Açıq Cəmiyyət İnstitutu Yardım Fondunun, Dünya Bankının, Avropa Komissiyasının Azərbaycan Nümayəndəlikləri və yerli QHT nümayəndələri ilə görüşlər keçiriblər. Oktyabr ayının 5-də Beynəlxalq Mətbuat Mərkəzində keçirilən mətbuat konfransında Qırğızıstanın vətəndaş cəmiyyəti təmsilçiləri Azərbaycana səfərlərinin yekunları, keçirdikləri görüşlər barədə media nümayəndələrinə məlumat verib və onları maraqlandıran sualları cavablandırıblar.

**Layihələrin adı:**

Ünvanlı sosial yardım mexanizminin effektivliyinə təsir edən faktorların qiymətləndirilməsi

**Maliyyə dəstəyi:**

ABŞ Beynəlxalq İnkişaf Agentliyi, Counterpart International

**Layihənin müddəti:**

Avqust 2006 - Aprel 2007

2006-cı ilin avqust ayında başlayan layihənin son 4 ayı 2007-ci ildə icra olunub.Layihənin məqsədi daxil edilmə və kənara cıxma səhvlərinin azaldılması ilə ünvanlı sosial yardım (ÜSY) mexanizminin təkminləşdirilməsi, həmçinin müraciət prosedurалarının asanlaşdırılması ilə ərizələrin dəyərinin, xüsusilə yoxsul əhali üçün azaldılması istiqamətində təkliflər işləməklə hökumətin bu sahədəki siyasətinə dəstək göstərmək idi.

Layihənin effektliyini artırmaq məqsədilə Rusiyanın Şəhər İqtisadiyyatı İnstitutunun (Urban İnstitute) mütəxəssisi Anastasiya Aleksandrovna Bakıda olub və öz təcrübəsini İTM ekspertləri ilə bölüşüb. O, həmçinin İTM-in ofisində aidiyyatı dövlət qurumları və ictimaiyyət nümayəndələri üçün təlim də keçib. Layihə çərçivəsində əhalinin məlumat mənbələri, məlumatların əlçatanlığı, ərizələrin toplanması zamanı ƏSMM və digər orqanlarda qarşılaşdıqları problemlər, sənədlərin toplanması zamanı sərf edilən vaxt və maliyyə vəsaitləri, məmurların peşəkarlığı və s. sahələrdə araşdırmalar aparılması nəzərdə tutulurdu. Layihə çərçivəsində bu məqsədlərə nail olmaq üçün iki istiqamətdə - ÜSY təyin edilmiş ailələr və ÜSY təyin edilməsindən imtina edilmiş ailələr arasında - sorğu keçirilib. Sorğular Bakının Sabunçu rayonunda və Respublika tabeli Mingəçevir şəhərində 800 respondenti əhatə edib. Sorğunun nəticələri ümumiləşdirilərək tədqiqat hesabatı və tövsiyələr paketi hazırlanıb.



**Layihələrin adı:**

"Büdcə şəffaflığı və büdcəyə nəzarət" və Yerli özünüidarəetmə və Azərbaycanda yoxsulluğun azaldılmasında bələdiyyələrin rolu

**Maliyyə dəstəyi:**

"Oksfam" Beynəlxalq Humanitar Təşkilatı (Böyük Britaniya)

**Layihələrin müddəti:**

May 2005 - Aprel 2007

**2005-ci ilin may ayından başlayan "Büdcə şəffaflığı və büdcəyə nəzarət" layihəsinin son 4 ayı 2007-ci ildə icra olunub.** Layihənin məqsədi dövlət büdcəsindən ilkin səhiyyə xidmətlərinə (İSX) ayrılan vəsaitin səmərəli istifadə modelini hazırlamaq və bununla əhaliyə göstərilən ilkin səhiyyə xidmətinin kefiyyətinin artırılmasına yardımçı olmaq idi. Layihə çərçivəsində "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramının (2003-2005-ci illər)" ayrı-ayrı bölmələrinin icrası nəticələrinin monitorinqi aparılıb. Monitorinq pilot olaraq seçilmiş Şəmkir, Göyçay, Salyan və Xaçmaz rayonlarını əhatə edib.

---

**2004-cü ilin may ayından başlayan, bələdiyyə büdcələrində şəffaflığın artırılması məqsədilə Aran-Qarabağ regionunda həyata keçirilən layihənin son 4 ayı 2007-ci ildə icra olunub.** 2004-2005-ci illərdə 3, 2005-2006-cı illərdə 10 və 2006-2007-ci illərdə isə 15, ümumilikdə 28 bələdiyyə ilə əməkdaşlıq edilib. Əməkdaşlıq edilən bələdiyyələrin seçimi üçün büdcə şəffaflığına meyllilik, bələdiyyə büdcəsinin ictimaiyyətə açıqlığı, yerli əhali ilə birgə fəaliyyətə üstünlük meyarları əsas götürülüb.

Layihə çərçivəsində parlament nümayəndələri, yerli QHT və KİV nümayəndələrinin təmsilçiliyi ilə İctimai Vəkillik Qrupu yaradılıb. Qrupun yaradılmasında məqsəd bələdiyyələrin maliyyə və səlahiyyət imkanlarının artırılması istiqamətində milli səviyyədə vəkillik işinin aparılması olub. Layihənin sonunda qrup üzvlərinin birgə fəaliyyəti nəticəsində "Azərbaycanda bələdiyyələrin gücləndirilməsi" Konsepsiyası hazırlanaraq ictimaiyyətə təqdim olunub.

# Konfranslar və təqdimatlar

| Mövzu | Tarix | Mövzu | Tarix |
|---|---|---|---|
| "Tarif Şurasının son qərarına münasibət və gözlənilən qiymət artımları" mövzusunda mətbuat konfransı | **08 yanvar 2007-ci il** | "2006-cı ildə dünyada lider olan Azərbaycanın regionda yeri: retrospektiv təhlil və perspektiv baxış"mövzusunda dəyirmi masa | **10 iyul 2007-ci il** |
| "Qiymət artımı və inflyasiya təsirinin neytrallaşdırılması" mövzusunda mətbuat konfransı | **25 yanvar 2007-ci il** | "Alternativ inflyasiya metodologiyasının işlənməsi" layihəsi üzrə 6 aylıq yekunlara dair mətbuat konfransı | **20 iyul 2007-ci il** |
| "Alternativ inflyasiya metodologiyasının işlənilməsi" layihəsinin təqdimatı | **15 fevral 2007-ci il** | "Azərbaycan iqtisadiyyatının modelləşmə problemləri və perspektivlər" mövzusunda dəyirmi masa | **02 avqust 2007-ci il** |
| "Bələdiyyə büdcələrində şəffaflıq təşəbbüslərinin genişləndirilməsi və ictimai iştirakçılığın təmin olunması" layihəsinin yekun konfransı | **05 aprel 2007-ci il** | "Alternativ inflyasiya metodologiyasının işlənməsi" layihəsinin 1-ci mərhələsinin yekunlarına həsr olunmuş konfrans | **16 avqust 2007-ci il** |
| Unvanlı sosial yardımla bağlı aparılmış monitorinqin nəticələrinin təqdimatı | **11 may 2007-ci il** | Qırğızıstan vətəndaş cəmiyyəti təmsilçilərinin mətbuat konfransı | **05 oktyabr 2007-ci il** |
| "Vətəndaşın büdcə bələdçisi" kitabının təqdimatı | **15 may 2007-ci il** | "Alternativ inflyasiya metodologiyasının işlənməsi" layihəsi üzrə 9 aylıq yekunlara dair mətbuat konfransı | **17 oktyabr 2007-ci il** |
| "Azərbaycanda bələdiyyələrin gücləndirilməsinə Konsepsiyasının təqdimatı | **24 may 2007-ci il** | | |
| Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramının (2003-2005-ci illər) səhiyyə bölməsinin icrasının monitorinqinin yekunlarına həsr olunmuş konfrans | **30 may 2007-ci il** | "Alternativ inflyasiya metodologiyasının işlənməsi" layihəsi üzrə 10 aylıq yekunlara dair mətbuat konfransı | **9 noyabr 2007-ci il** |
| "Minilliyin Inkişaf Məqsədlərinin icrası ilə bağlı Azəırbaycanda görülən işlər, mövcud vəziyyət və problemlər" mövzusunda dəyirmi masa | **06 iyul 2007-ci il** | "Alternativ inflyasiya metodologiyasının işlənməsi" layihəsi üzrə 11 aylıq yekunlara dair mətbuat konfransı | **13 dekabr 2007-ci il** |

# Seminarlar, təlimlər

| Mövzu | Tarix | Mövzu | Tarix |
|---|---|---|---|
| "Alternativ inflyasiya metodologiyasının işlənilməsi" mövzusunda seminar | **13 aprel 2007-ci il** | "Büdcə şəffaflığı və bələdiyyələrin qərar qəbul etmə prosesində ictimaiyyətin iştirakının gücləndirilməsi" mövzusunda təlim | **02 - 05 oktyabr 2007-ci il Qax şəhəri** |
| "Səhiyyə büdcəsi və vəkillik" mövzusunda təlim | **20-21 aprel 2007-ci il** | "Büdcə şəffaflığı və bələdiyyələrin qərar qəbul etmə prosesində ictimaiyyətin iştirakının gücləndirilməsi" mövzusunda təlim | **08 - 11 oktyabr 2007-ci il Lənkəran şəhəri** |
| "Alternativ inflyasiya metodologiyasının işlənilməsi" mövzusunda seminar | **01 may 2007-ci il Gəncə şəhəri** | | |
| "Büdcə şəffaflığı və bələdiyyələrin qərar qəbul etmə prosesində ictimaiyyətin iştirakının gücləndirilməsi" mövzusunda təlim | **25-28 sentyabr 2007-ci il Xaçmaz şəhəri** | "Səhiyyə büdcəsinin oxunuşu və təhlili" mövzusunda seminar | **23 dekabr 2007-ci il** |



# Talk-şoular, filmlərin nümayişi

| Mövzu | Tarix | Mövzu | Tarix |
|---|---|---|---|
| "Bələdiyyə büdcələrində şəffaflıq təşəbbüslərinin genişləndirilməsi və ictimai iştirakçılığın təmin olunması" mövzusunda talk-şou | **22 yanvar 2007-ci il, "Qütb" TV** | "Səhiyyə sisteminin maliyyələşməsi" mövzusunda talk-şou | **23 iyun 2007-ci il İctimai Televiziya** |
| "Bələdiyyə büdcələrində şəffaflıq təşəbbüslərinin genişləndirilməsi və ictimai iştirakçılığın təmin olunması" mövzusunda talk-şou | **15 mart 2007-ci il, İctimai Televiziya** | "Şəkərli Diabet üzrə Dövlət Proqramı"nın monitorinqinə həsr olunmuş talk-şou | **14 noyabr 2007-ci il İctimai Televiziya** |
| "Alternativ inflyasiya metodologiyasının işlənilməsi" mövzusunda talk-şou | **26 mart 2007-ci il, İctimai Televiziya** | | |
| "Yerli özünüidarəetmə və Azərbaycanda yoxsulluğun azaldılmasında bələdiyyələrin rolu" mövzusunda talk-şou | **24 aprel 2007-ci il** | Ana və uşaq ölümü probleminə həsr olunmuş "Dünyaya göz açanda" sənədli filmi | **7 iyul 2007-ci il ANS telekanalı, "Simurq" TV, "Aygün" TV, "Mingəçevir" TV, "Alternativ" TV , "Qütb" TV** |

# Radiodebatlar

| Mövzu | Tarix |
|---|---|
| Yoxsulluğun Azaldılması və İqtisadi Inkişaf üzrə Dövlət Proqramının (2003-2005-ci illər) səhiyyə bölməsinin icrasının monitorinqinin nəticələri ilə bağlı radiodebat | **11 iyul 2007-ci il "Azadlıq" radiosu** |
| "Azərbaycanda HIV/AIDS xəstəliyi və ona qarşı görülən tədbirlər, problemlər" mövzusunda radiodebat | **25 iyul 2007-ci il "Azadlıq" radiosu** |
| "Azərbaycanda diabet xəstəliyinə tutulmuş insanlara dövlət qayğısı, bu sahədə mövcud vəziyyət və problemlər" mövzusunda radiodebat | **21 avqust 2007-ci il "Azadlıq" radiosu** |

# İnformasiya bülletenləri











**İTM gördüyü işlər və əldə etdiyi nəticələri dövrü olaraq ictimaiyyətə təqdim etmək məqsədilə 2007-ci ilin oktyabr ayından başlayaraq aylıq informasiya bülletenlərinin hazırlanması işinə start verib. Bülletenlərdə Mərkəzin həyata keçirdiyi layihə və tədbirlər, əldə olunmuş nəticələr, daxili xəbərlər və s. haqqında məlumatlar öz əksini tapıb. Artıq mərkəzin 3 bülleteni hazırlanaraq ictimaiyyətə təqdim olunub. Bülletenlər Azərbaycan, rus və ingilis dillərində elektron formatda yayılır.**

# Donorlar və Tərəfdaşlar

**İTM-in donorları əsasən beynəlxalq fondlar və humanitar təşkilatlardan ibarətdir. İTM-in praktikasında özəl sektorun və dövlət qurumların sifarişləri ilə tədqiqat aparmaq təcrübəsi də vardır. İTM-in hazırda və əvvəllər əməkdaşlıq etdiyi donorları təqdim edirik**

**İTM-in tərəfdaşları arasında yerli və beynəlxalq təşkilatlar, assosiasiyalar üstünlük təqkil edir. İTM onlarla ikitərəfli və çoxtərəfli əməkdaqlıq imkanlarına malikdir. İTM-in sıx əməkdaşlıq etdiyi təşkilatları təqdim edirik.**

# Tövsiyələr



İTM-in əsas fəaliyyət istiqamətlərindən biri də iqtisadi sahədə siyasət tədqiqatlarının aparılması, qiymətləndirilməsi, hesabatlar əsasında təsir qrupları üçün tövsiyələr hazırlanması və aidiyyatı dövlət orqanlarına təqdim edilməsidir. 2007-ci ildə İTM-in hazırlayaraq aidiyyəti təşkilatlara təqdim etdiiyi tövsiyələr aşağıdakılardır:

**1) Tarif Şurasının 06 yanvar 2007-ci il qərarının inflyasiya yaradıcı təsirinin azadılmasna dair tövsiyələr, 23 yanvar 2007;**

**2) Azərbaycanda bələdiyyələrin gücləndirilməs dair Konsepsiyası, 24 may 2007;**

**3) Anti-inflyasiya tədbirlərinin gücləndirilməsinə dair tövsiyyələr, noyabr 2007.**

# “Ekspert” iqtisad jurnalı





**İTM-in nəşri olan “Ekspert” iqtisad jurnalının fəaliyyəti 2007-ci ildə də davam etdirilib. Dövri olaraq ayda 1 dəfə nəşr olunması nəzərdə tutulan jurnalın ötən il 10 sayı işıq üzü görüb. Jurnalda Azərbaycan və ümumilikdə dünya iqtisadiyyatında baş vermiş mühüm hadisələr haqqında məlumatlar, analitik yazılar, müstəqil ekspertlərin iqtisadiyyatın müxtəlif problemlərindən bəhs edən yazıları dərc olunur. Onu da qeyd edək ki, jurnala maraq göstərənlərin sayı və onun oxucu auditoriyası 2007-ci ildə artan istiqamətdə xeyli genişlənib.**

# Beynəlxalq tədbirlərdə iştirak






2007-ci ildə İTM idarə və işçi heyətinin üzvləri müxtəlif səviyyəli beynəlxalq tədbirlərdə, o sıradan 27-29 martda Bosniya/Hersoqovinanın Sarayevo şəhərində "Mərkəzi və Şərqi Avropa ölkələrində yerli hakimiyyətlər və sosial məsuliyyət" mövzusunda konfransda, 16 may- 06 iyunda ABŞ-ın Ohayo ştatının Klivlend şəhərində "Səhiyyənin maliyyələşdirilməsi" mövzusunda öyrənmə turunda , 17-18 mayda Macarıstanın Budapeşt şəhərində "Bilik və güc arasında körpünün qurulması" mövzusunda seminarda, 03-08 iyunda Yaponiyanın Tokio şəhərində "Biliyin idarə olunması və bölüşdürülməsi" mövzusunda konfransda, 13-15 iyunda İndoneziyanın Cakartada şəhərində "Mədən sənayesində şəffaflıq təşəbbüsü" mövzusunda seminarda, 27-28 iyunda Çinin Urumçı şəhərində Mərkəzi Asiya və Cənubi Qafqazda dövlət quruculuğunun modernləşməsi və çətinliklər" mövzusunda regional konfransda, 01-03 noyabrda Almaniyanın Berlin şəhərində Açıq Cəmiyyət İnstitutları Assosiasiyasının (PASOS) illik konfransında, 05-06 noyabrda Hindistanın Qoa şəhərində XIII İssık-Kul Forumunda və s. tədbirlərdə iştirak ediblər.

# İşçi heyətinin bilik və bacarıqlarının artırılması

- Kadrların təkmilləşdirilməsi məqsədilə keyfiyyətə nəzarət üzrə məsul işçi Tural Məmmədov, beynəlxalq əlaqələr üzrə məsul işçi Elşad Mikayılov və monitorinq qrupunun rəhbəri Zamin Talıblı 15-17 martda 2007-ci il tarixlərində «Effektiv siyasət təhlili sənədinin hazırlanması» mövzusunda 3 günlük təlim-seminarda iştirak edib. Bu təlim-seminarda əməkdaşlarımız siyasət sənədinin hazırlanması qaydaları haqqında biliklərə yiyələniblər.

- 16-20 iyulda İqtisadi Tədqiqatlar Mərkəzinin keyfiyyətə nəzarət üzrə məsul işçisi Tural Məmmədov, Xarici əlaqələr üzrə məsul işçisi Elşad Mikayılov, Rəcəb İmanov və Rauf Qasımov ABŞ BİA-nin Vətəndaş Cəmiyyəti Layihəsi tərəfindən təşkil olunan "Vətəndaş iştirakçılığı" üzrə təlimdə iştirak edib. Təlim Novxanı Yay Təlim Mərkəzində keçirilib. Təlimin məqsədi Azərbaycan hökuməti ilə vətəndaşlar arasında olan dialoqu inkişaf etdirməyə yardım etmək idi. Təlim Urban İnstitutunun əməkdaşları Deborah Kimble və Naviin Uavid tərəfindən aparılıb.

- 25-26 iyulda İqtisadi Tədqiqatlar Mərkəzinin maliyyə meneceri Anar Bayramov Mikromaliyyə təşkilatlarında mühasibat uçotunun təşkili mövzusunda keçirilən təlimdə iştirak edib. bp Biznes Mərkəzində keçirilən təlim Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən təşkil olunub. Təlimi "Cred Agro" Qeyri Bank Kredit Təşkilatının baş mühasibi aparıb.




- 28-30 noyabrda İqtisadi Tədqiqatlar Mərkəzinin insan resursları üzrə məsul işçisi Ceyran Nəsibova Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən təşkil olunan təlimdə iştirak edib. Təlim-seminar insan resurslarının idarə edilməsi mövzusuna həsr olunub. Təlimin təşkilində məqsəd insan resursalrı ilə işləyən menecerlərə öz təkilatları daxilində insan resurslarının effektiv idarəsinin əsas elementlərini anlamağa kömək etmək idi. Təlimləri "Azəri Star" Mikromaliyyə qurumunun icraçı direktoru Rüfət Abbas aparıb.

# Nəşrlər







İTM həyata keçirdiyi layihələrin bəzilərinin yekunu olaraq aparılan tədqiqatlar və əldə olunmuş nəticələri özündə əks etdirən nəşrlər hazırlanır. 2007-ci ildə də Mərkəzin 2 kitabı - **“Vətəndaşın büdcə bələdçisi - 2007”** və **“Alternativ inflyasiya: beynəlxalq təcrübə və Azərbaycan”** - işıq üzü görüb. “Vətəndaşın büdcə bələdçisi - 2007” kitabı “Büdcə bələdçisi” seriyasından artıq 4-cü idir ki, nəşr olunur. Belə ki, kitab 2005-ci ildən başlayaraq hər il Mərkəz tərəfindən hazırlanaraq nəşr olunur. Kitabda Mərkəz ekspertləri tərəfindən dövlət büdcəsinin gəlir mənbələri və xərc maddələri təhlil olunaraq izahlı şəkildə ictimaiyyətə təqdim olunur. “Alternativ inflyasiya: Beynəlxalq təcrübə və Azərbaycan” kitabı İTM-in həyata keçirdiyi “Alternativ inflyasiya metodologiyasının işlənilməsi” layihəsi çərçivəsində nəşr olunub. Kitabda layihə çərçivəsində tədqiq olunmuş dünya ölkələrinin inflyasiya hesablamaları təcrübəsi və İTM-in bu sahədə apardığı tədqiqatlar oxuculara təqdim olunur.

# İnflyasiya kalkulyatoru







**www.inf.erc-az.org**

**ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) maliyyə dəstəyi ilə İqtisadi Tədqiqatlar Mərkəzi tərəfindən həyata keçirilən "Alternativ inflyasıya metodologiyasının işlənilməsi" layihəsi çərçivəsində ailənin inflyasiya kalkulyatoru hazırlanıb. İnflyasiya kalkulyatoru fərdi qaydada istehlak qiymətləri indeksini (İQİ) hesablamağa imkan verir. Bunun üçün istehlak edilən malların siyahısı və müqayisə edilən dövr seçilir. Alınan nəticə Sizin bilavasitə istifadə etdiyiniz məhsullar və seçdiyiniz dövrlər üzrə inflyasiya səviyyəsini göstərir.**

# Bələdiyyə vergi kalkulyatoru







**www.vergi.erc-az.org**

**İqtisadi Tədqiqatlar Mərkəzi Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Dünya Bankının maliyyə dəstəyilə həyata keçirilən layihə çərçivəsində yerli vergilərin hesablanmasını avtomatlaşdırmaq məqsədilə bələdiyyə vergi kalkulyatoru hazırlayıb. Bələdiyyə vergi kalkulyatoru ilə istənilən şəxsə yerli vergiləri - fiziki şəxslərin torpaq və əmlak, bələdiyyə müəssisələrinin mənfəət və bələdiyyə büdcəsinə ödənilən yerli əhəmiyyətli tikinti materialları üzrə - mədən vergilərini hesablaya bilər.**

# Maliyyə

## 2007-ci ildə İTM-in maliyyələşmə mənbələri (%-lə)



# 2007-ci ildə İTM-in maliyyələşmə mənbələri (%-lə)

| Maliyyə mənbələrinin adı | **Xüsusi çəkisi (%-lə)** | Maliyyə mənbələrinin adı | **Xüsusi çəkisi (%-lə)** |
|---|---|---|---|
| Oxfam Beynəlxalq Humanitar Təşkilatı | 22,93 | Milli Büdcə Qrupu (maliyyə agenti) | 5,12 |
| Açıq Cəmiyyəti İnstitutu - Yardım Fondu | 13,15 | CHF | 3,28 |
| Açıq Cəmiyyəti İnstitutu - Budapeşt ofisi | 11,87 | Milli Avrointe-qrasiya Komitəsi (maliyyə agenti) | 2,90 |
| Dünyanı Öyrənmək təşkilatı | 11,47 | ProCon GfK | 1,13 |
| Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası (maliyyə agenti) | 7,63 | Üzvlük haqqı | 0,71 |
| Oxfam Novib Təşkilatı | 6,56 | İqtisadi Təhsil üzrə Milli Şura | 0,41 |
| Counterpart | 6,29 | Dünya Bankı | 0,40 |
| Avrasiya Fondu | 6,02 | Sabiedriskas Politikas Centre | 0,13 |

# Müşahidə Şurası



**Əli Əlirzayev,**

**İqtisadçı - professor**



**Mehman Əliyev,**

**“Turan” İnformasiya agentliyinin direktoru**

**Leyla Əliyeva,**

**Politoloq**





**Nailə Balayeva,**

**Jurnalist**

**Azər Mehtiyev,**

**İqtisadçı alim**



# İdarə Heyəti



**Dr.Qubad İbadoğlu**

***İdarə Heyətinin sədri***



**Dünya Camalova**

***İdarə Heyətinin üzvü, jürnalist***

**Vüsal Qasımlı**

***İdarə Heyətinin sədr müavini***







**Eldar Qocayev**

***İdarə Heyətinin üzvü, hüquqşunas***

**Prof. Fuat Rəsulov**

***İdarə Heyətinin üzvü, professor***





**Dr.Təhmasib Quliyev**

***İdarə Heyətinin üzvü***

**Elşad Mikayılov**

***İdarə Heyətinin üzvü***



# İşçi Heyəti

**1 yanvar 2008-ci ilə İTM-in işçi heyəti 19 nəfərdən ibarət olub, onlardan 16-sı tam ştata daxildir, 3-i müqavilə əsasında çalışır.**
**İTM-in regionlarda sorğu aparan 19 işçisi vardır.**



| Adı və Soyadı | Vəzifəsi | E-mail |
|---|---|---|
| Qubad İbadoğlu | **İdarə Heyətinin sədri** | gbayramov@erc-az.org |
| Vüsal Qasımlı | **İdarə Heyətinin sədr müavini** | vqasimli@erc-az.org |
| Dünya Camalova | **İctimai əlaqələr üzrə məsul işçi** | dcamalova@erc-az.org |
| Fuat Rəsulov | Ekspert | frasulov@erc-az.org |
| Anar Bayramov | **Maliyyə meneceri** | abayramov@erc-az.org |
| Fəridə Şahverdiyeva | **Baş mühasib** | fshahverdiyeva@erc-az.org |
| Nuranə İsmayılova | **Keyfiyyətə nəzarət üzrə məsul işçi** | nismayılova@erc-az.org |
| Tural Məmmədov | **Layihə koordinatoru** | tmamedov@erc-az.org |
| Pərvanə Persiyani | **Beynəlxalq əlaqələr üzrə məsul işçi** | ppersiani@erc-az.org |
| Şöhlət Səlimov | **Ofis menecer** | ssalimov@erc-az.org |
| Ceyran Nəsibova | **İnsan resursları üzrə məsul işçi** | jnasibova@erc-az.org |
| Rövşən İbadov | **İT menecer** | ribadov@erc-az.org |
| Lalə Cəfərova | **Kargüzar** | ljafarova@erc-az.org |
| Rəcəb İmanov | **Layihə assistenti** | rimanov@erc-az.org |
| Ləman Babayeva | **Bələdiyyə Resurs Mərkəzinin əlaqələndiricisi** | lbabayeva@erc-az.org |
| Rauf Qasımov | **Layihə assistenti** | rqasimov@erc-az.org |